2018-ci ilin yanvar-iyul aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 621 milyon 450 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur. Sənaye istehsalının 96 faizi malların, 4 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 27 milyon 443 min 800 manatlıq, qeyri-dövlət sektorunda 594 milyon 6 min 200 manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ilin yanvar-iyun aylarında muxtar respublikanın sənaye müəssisələrində 16450 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz artaraq 380,4 manat olmuşdur.